# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 11 (1672) 14 iyun 2018 - ci il Qiymәti 50 qəpik


## Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə iftar mərasimində iştirak edib



**İyunun 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib.

İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.

X X X

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür PAŞAZADƏ mərasim iştirakçılarını salamlayıb.

X X X

Dövlətimizin başçısı mərasimdə nitq söyləyib.

X X X

Sonra iftar süfrəsi açılıb.

## BU SAYIMIZDA




2

ATU-nun hazırlıq kursuna əcnəbi vətəndaşların qəbulu yeni sistemlə aparılır


2

La Crosse Universitetinin professoru hazırladığı hesabatı ATU-nun rektoruna təqdim edib 2



ATU-nun cərrahları nüfuzlu beynəlxalq konqresdə təcrübə mübadiləsi ediblər 7



«Azərbaycan və İsraildə psixiatrik xidmətin təşkili və hüquqi aspektləri» mövzusunda beynəlxalq konfrans 3


9
4

YAY İMTAHAN SESSİYASI UĞURLA DAVAM EDİR

**◆ Bəşər sivilizasiyasının inkişaf tarixi sübut edir ki, hər bir millətin sosial təfəkküründə məhz onun tarixi gerçəkliyinin məşəqqətli, faciəli məqamları daha çox iz buraxır. Tərəqqiyə mane olan ictimai qrupları və maneələri vaxtında təmkin və qətiyyətlə aradan qaldırmaq qabiliyyəti, xalqın dəstəyinə və qüdrətinə söykənməklə gələcəyə doğru inamla addımlamaq yeni bir təfəkkür formalaşdırır.**



# AZƏRBAYCAN XALQININ MİLLİ QURTULUŞ GÜNÜ

Bu baxımdan, Azərbaycan xalqının siyasi həyatının taleyi zəngin tarixi ibrət məktəbidir. Müstəqilliyimizin bərpa edilməsindən qurtuluş gününədək xalqımızın taleyinə insan faciəsi və qaçqınlıqla bağlı çox ağır illərlə yanaşı, misilsiz dəyərə malik sabitlik illəri də daxildir. Adi şüur səviyyəsində sadə səslənən bu sətirlərin arxasında tariximizin ibrətamiz həqiqətləri durur. Biz bu günü ola bilər ki, hələ də dəyərincə qiymətləndirməmişik. Taleyüklü illərimizin hər bir anı bir tarixdir. Xalqımıza ilahinin bəxş etdiyi xoşbəxtlikdir ki, öz tarixinin sarsıntılı dövrlərində dövlətçiliyini və taleyini görkəmli dövlət xadimlərinə, səriştəli şəxsiyyətlərə etibar etmək müdrikliyinə sahib olmuşdur. Xalqımız bir daha tarixi müdriklik nümayiş etdirərək dünyanın nəhəng siyasətçilərindən biri, təcrübəli dövlət başçısı, millətini sevən ulu öndərimiz Heydər Əliyevi 1993-cü ildə təkidlə hakimiyyətə gətirdi.

Heydər Əliyev respublika rəhbərliyinə ikinci dəfə qayıdarkən çox sərt reallıqlarla üzləşməli olmuşdur. Bir sözlə, bütün bu taleyüklü problemlərin həlli vətəninə və xalqına məhəbbət hissi ilə yanan Heydər Əliyevin böyük amalına çevrildi.

Siyasətdə nəhəng dövlətçilik təcrübəsi olan müdrik Şəxsiyyət dərk edirdi ki, ölkəni dərin böhrandan çıxarmaq üçün hər şeydən əvvəl xalqa öz dövlətçiliyinə olan inamı qaytarmaq lazımdır. Çünki bunsuz xalqı quruculuq işlərinə səfərbər etmək olmaz. Zaman göstərdi ki, "Heydər - xalq" deyimi cəmiyyətimizdə böyük sosial həmrəylik amili oldu. Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, ölkənin acınacaqlı vəziyyətinin əsl səbəblərinin düzgün başa düşülməsinə aydınlıq gətirmək son dərəcə vacib məsələ idi. Çünki dünya ictimaiyyətinin gözü qarşısında ölkəmiz həm siyasi, həm də mənəvi iflasa uğramışdı.

Ölkəsinin və xalqının gələcəyini düşünən Heydər Əliyevin müdrik siyasəti sayəsində Azərbaycan bir çox beynəlxalq və regional təşkilatlarla əlaqələri genişləndirmiş və möhkəmləndirmişdir. Ölkəmiz dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarından olan Avropa Şurasına bərabərhüquqlu üzv qəbul edilmiş, qanunvericiliyini beynəlxalq hüquq normalarına uyğunlaşdırmaqla Avropanın hüquq məkanına daxil olmuşdur.

Hazırda Azərbaycanın 140-dan çox ölkə ilə diplomatik əlaqə qurması, Vyana Konvensiyasının iştirakçısı olan dövlətlərlə respublikamız arasında olan konsulluq münasibətləri yaratması, onun mötəbər beynəlxalq təşkilatlarda təmsil olunması milli qurtuluşun böyük mənasından xəbər verir. Ölkə başçısının BMT-nin 50 illiyi ilə əlaqədar tədbirlərdə iştirakı, bu nüfuzlu beynəlxalq təşkilatın yüksək tribunasından dünya birliyinə Azərbaycan həqiqətlərini inandırıcı surətdə çatdırması Azərbaycanın bütün dünyada tanınmasında müstəsna rol oynamışdır. Məhz məqsədyönlü milli xarici siyasətin nəticəsidir ki, cənab Heydər Əliyevin dediyi kimi, "bu gün Dağlıq Qarabağ ətrafında Ermənistan Azərbaycan münaqişəsinin həlli ilə bağlı Azərbaycanın haqlı tələbləri bütün dünya ölkələri, beynəlxalq və regional təşkilatlar tərəfindən dəstəklənir".

Milli qurtuluş, heç şübhəsiz ki, bizə daxili, xüsusilə iqtisadi problemlərimizlə məşğul olmaq üçün əlverişli şərait yaratmışdır. Ölkə Prezidentinin haqlı olaraq qeyd etdiyi kimi, yalnız 1994-1995-ci illərdə ölkədə siyasi vəziyyət normal məcraya salındıqdan və ictimai - siyasi sabitlik təmin edildikdən sonra çoxsaylı sosial-iqtisadi problemlərin həlli istiqamətində ardıcıl iş aparılması mümkün oldu. Sosial yönümlü bazar iqtisadiyyatına keçid istiqamətində aparılan islahatlar, onların nəticələri sübut edir ki, Azərbaycan ən cəsarətli islahatlar aparmağa qadir dövlətdir.

Ölkəmizin sivilizasiyalı inkişafının bariz göstəricisi budur ki, respublikada demokratik dövlət və sosial institutlar quruculuğu, bazar münasibətlərinə söykənən iqtisadi sistemin formalaşması üçün müvafiq hüquqi baza yaradılmışdır.

Azərbaycanda Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində yaranmış sabitliyin qorunmasının, bütövlükdə dövlətçiliyimizin möhkəmləndirilməsinin xalqımızın taleyində necə zəruri sosial dəyərlər olduğunu başa düşmək gərəkdir.

Milli qurtuluş o deməkdir ki, biz azərbaycanlılığımızı, dünya birliyində sivilizasiyalı xalqlarla çiyin-çiyinə yaşayıb yaratdığımızı dərk etdik. Müstəqillik və milli qurtuluş idealı xalqın düşüncə, ləyaqət fəlsəfəsinə çevrilmişdir. Ölkə Prezidenti dünya azərbaycanlılarının Bakıda keçirilmiş qurultayında bu fəlsəfənin mahiyyətini çox gözəl açıqlamışdır: "Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndərmək üçün hər cür qurban verməyə hazır olsun. O, azərbaycançılığın, mənsub olduğu Azərbaycan xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir".

Milli qurtuluş tariximizdə yeni fəlsəfi səhifə açmışdır. Bu, o deməkdir ki, xalqımız artıq öz milli mənliyini dərk edir, dövlətçiliyinin qədrini bilir. Bu isə gələcəyə inamla baxmaq, müstəqillik yolunda qarşıya çıxa biləcək hər cür çətinliyə mətanətlə sinə gərmək deməkdir. Məhz buna görə də xalqımız öz Prezidenti ətrafında birləşərək onun nikbincəsinə dediyi bu sözlərə dərindən inanır: "Sizi əmin edirəm ki, Azərbaycan dövləti indiyə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin, Azərbaycan xalqının milli azadlığının keşiyində duracaq və bu müstəqilliyi cəsarətlə qoruyub saxlayacaqdır".

Heydər Əliyevin milli qurtuluş fəlsəfəsinin gerçək mahiyyəti məhz bundadır. Buradan irəli gələn ideyalar ölkə prezidenti cənab İlham Əliyev tərəfindən böyük zəhmət və əzmkarlıqla həyata keçirilir, müstəqil Azərbaycanın nüfuzu gündən-günə dünya miqyasında artır.

Azərbaycan Prezidenti Adminstrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin aşağıdakı fikri nəticə kimi götürülməyə tam layiqdir: "Bu gün xalq milli lider mandatını, bu məsul missiyanı beynəlxalq birlik tərəfindən görkəmli dövlət xadimi kimi İlham Əliyevə etibar edib. Müasir çiçəklənən Azərbaycan əsl millət lideri kimi onun iradəsinin, zəkasının və istedadının nəticəsidir.

**Qoşqar ƏLİYEV,**
*İctimai fənlər kafedrasının müdiri, professor*

## La Crosse Universitetinin professoru hazırladığı hesabatı ATU-nun rektoruna təqdim edib

**◆ ABŞ-ın Viskonsin ştatının La Crosse Universitetinin professoru Robert A.Jecklin Azərbaycan Tibb Universitetinin qonağı olub. Səfər zamanı professor Robert A.Jecklin ictimai səhiyyə fakültəsinin nəzdindəki kafedraların dərs proqramları ilə tanış olub. Amerikalı mütəxəssis İctimai səhiyyə fakültəsinin tibbi profilaktika ixtisasına aid olan kafedralarda dərsliklərin yenilənməsi, dərs proqramlarının modernləşdirilməsi işinin təşkilinə yardım etmək məqsədilə geniş rəy hazırlayıb.**



İyunun 8-də amerikalı professor Robert A.Jecklin ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüb və hazırladığı hesabatı ona təqdim edib. Görüş zamanı rektor amerikalı həmkarına dəvəti qəbul edib göstərdiyi yardıma görə təşəkkürünü bildirdi. G.Gəraybəyli onun kimi yüksək səviyyəli bir mütəxəssis rəyinin çox önəmli olduğunu vurğulayaraq, bu hesabatın işlərin təkmilləşdiriməsində yardımçı olacağına inandığını qeyd edib.

Professor Robert A.Jecklin qeyd edib ki, səfər zamanı ATU-da ictimai səhiyyə fakültəsində yaradılan şəraitlə, tədris proqramı ilə tanış olub. Azərbaycanda ictimai səhiyyənin vəziyyəti, bu sahənin tədrisi, Azərbaycan və ABŞ-da ictimai səhiyyənin tədris sistemləri arasında fərq və s. mövzularda araşdırma aparıb. Nəticədə, Azərbaycanda ictimai səhiyyənin tədrisinin yaxşılaşdırılması ilə bağlı rəy hazırlayıb. Professor R.Jecklin bu araşdırmanın ATU rəhbərliyinə kömək olacağına ümid etdiyini deyib.

Görüşdə ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Nadir Zeynalov və ATU-nun ictimai səhiyyə fakültəsinin dekanı, dosent Anar Ağayev iştirak ediblər.

Qeyd edək ki, professor R.Jecklin bir ay ərzində ATU-nun qonağı olub. O, İctimai səhiyyə fakültəsinin VI kurs tələbələri və fakültənin kafedralarının professor-müəllim heyəti qarşısında "ABŞ-da uşaq və yeniyetmələrin sağlamlığının qorunması sahəsində ictimai səhiyyənin praktikası" mövzusunda çıxış edib. Bundan əlavə, fakültə dekanı, dosent Anar Ağayevin iştirakı ilə bir sıra görüşlərdə iştirak edib.

## ATU-nun hazırlıq kursuna əcnəbi vətəndaşların qəbulu yeni sistemlə aparılır

Yeni tədris ilində Azərbaycan Tibb Universitetinin hazırlıq kursuna qeydiyyat yeni formada – elektron qaydada aparılır. ATU-nun Böyük Elmi Şurasının qərarına əsasən, 2018/2019-cu tədris ilindən etibarən, universitetə əcnəbi vətəndaşların qəbulu yalnız bu sistemlə aparılacaq.

Hazırlıq kurslarına elektron qəbulu təmin etmək məqsədilə universitetin saytında xüsusi səhifə yaradılıb. Əcnəbi vətəndaşların müraciətləri məhz bu səhifə üzərindən qəbul edilir. Bunun üçün lazımi sənədlərin elektron variantı portala yüklənir. Sənədlər yoxlanıldıqdan sonra qəbul edilir. Növbəti mərhələdə namizədlərlə Skype bağlantısı vasitəsilə müsahibə aparılır.



Artıq Türkiyə, İran, İraq, Yəmən vətəndaşları ilə Skype üzərindən müsahibələr aparılıb. Bu gün ATU-nun rektoru, professor Gəray Gəraybəyli də prosesin təşkili ilə tanış olub, Skype-la müsahibənin gedişini izləyib, prosedurun daha da təkmilləşdirilməsi üçün təkliflərini verib.

ATU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Nadir Zeynalovun sözlərinə görə, müsahibə zamanı tələbəmiz olmaq istəyənlərin bilik səviyyəsi dəyərləndirilir: "İntervyu 8 nəfərdən ibarət komissiya tərəfindən həyata keçirilir. Bu zaman namizədlərə həm ümumi suallar, həm də fənn sualları verilir. Hər bir namizədə cavablarına uyğun olaraq ballar yazılır. Əgər namizədin topladığı bal keçid balından yuxarıdırsa, onda onların ATU-nun hazırlıq kursuna qəbul üçün müraciətləri təmin edilir".

Skype-la müsahibə 8-10 dəqiqə davam edir. Komissiya ATU-nun idarə heyətinin üzvləri və fənn müəllimlərindən təşkil olunub. Müsahibə komissiyasının tərkibinə beynəlxalq əlaqələr üzrə prorektor Nadir Zeynalov, rektorun müşaviri Zülfüqar Musabəyov, ümumi işlər üzrə prorektor Natiq Xəlilov, xarici tələbələrlə iş üzrə dekan Orxan İsayev və fənn üzrə müəllimlər daxildir.

Universitetin hazırlıq kursuna qəbul edilmiş əcnəbi vətəndaşlara tələbə vizası almaq üçün müvafiq sənədlər göndərilir. Sənədləşmə işləri başa çatdıqdan sonra bu şəxslər respublikamızın miqrasiya qanunvericiliyinə uyğun qaydada tələbə vizası ilə təmin olunub, ATU-nun hazırlıq kursuna qatıla biləcəklər.

Qeyd edək ki, gələn ildən etibarən ATU-nun hazırlıq kurslarına ildə 2 dəfə – aprel-may və oktyabr-noyabr aylarında qəbul aparılacaq. Bu, həm əcnəbi vətəndaşların universitetimizə cəlb olunmasına, həm də dərs prosesinin təşkilinə imkan verəcək.

**ATU-nun mətbuat xidməti**

# «Azərbaycan və İsraildə psixiatrik xidmətin təşkili və hüquqi aspektləri» mövzusunda beynəlxalq konfrans

- **ATU-nun Tədris Terapevtik Klinikasında "Azərbaycan və İsraildə psixiatrik xidmətin təşkili və hüquqi aspektləri" mövzusunda beynəlxlaq konfrans keçirilib.**



Konfransda İsrailin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav, bu ölkənin 50-ə yaxın psixiatrı, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun psixiatriya və narkologiya kafedrasının müdiri Teymur Qafarov, Azərbaycan Səhiyyə Nazirliyi Psixi Sağlamlıq Mərkəzinin direktoru, Azərbaycan Tibb Universitetinin psixiatriya kafedrasının professoru, tibb elmləri doktoru Fuad İsmayılov və nüfuzlu şəxslər iştirak ediblər.

Konfransı giriş sözü ilə açan ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iştirakçıları ATU-nun rektoru, professor Gəray Gəraybəylinin adından salamlayaraq, konfransın işinə uğurlar arzulayıb.

O, Azərbaycan və İsrail arasında münasibətlərin tarixi köklərə dayandığını bildirib: "İsraillə Azərbaycan arasındakı dostluq münasibətlərinin tarixi qədimdir. Bu iki ölkə arasındakı əlaqələr bir çox sahələrdə olduğu kimi, tibb sahəsində də son zamanlar yüksək səviyyədə inkişaf etməyə başlayıb. Bunun göstəricisi olaraq, bu gün keçirilən konfransda İsrailin nüfuzlu həkimlərinin iştirakını göstərmək olar. Onlar öz ölkələrində psixologiya sahəsində kifayət qədər sözünü demiş şəxslərdir".



R. Bəylərov cənab səfirin bu iki ölkə arasında əlaqələrinin genişlənməsində və inkişaf etdirilməsində göstərdiyi xidmətləri yüksək qiymətləndirib.

Daha sonra çıxış edən səfir Dan Stav Azərbaycanın müstəqillik əldə etdikdən sonra qazandığı nailiyyətlərdən danışıb. Bildirib ki, Azərbaycan öz tolerantlığı ilə dünya ölkələri arasında böyük nufuza malikdir: "Bu gün keçirilən konfransın həm Azərbaycan, həm də İsrail üçün böyük əhəmiyyəti var. Çünki, psixiatriyanın dərindən öyrənilməsi və bu sahənin inkişafına töhfə verəcək perspektivli həkimlərin yetişdirilməsinə ehtiyac var. Düşünürəm ki, hər iki ölkə bu istiqamətdə artıq bir çox işlər həyata keçirməkdədir".

Səfir konfransın təşkilinə şərait yaradan ATU-nun rektoru, professor G.Gəraybəyliyə və təşkilatçılara minnətdarlığını bildirib.

Konfransda İsraildə psixiatrik xidmətlərin təşkili və tətbiq edilən yeniliklər, psixi yardımın təşkilinin hüquqi aspektləri, Azərbaycanda Psixiatrik Sağlamlıq Mərkəzinin fəaliyyəti, psixi sağlamlıq istiqamətində görülən işlər və s. mövzularda məruzələr dinlənilib.

# «Ailə həkimi İnstitutunun inkişafının yeni mərhələsində icbari tibbi sığortanın rolu» mövzusu müzakirə olunub

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (İTSDA) təşəbbüsü və Səhiyyə Nazirliyinin dəstəyi ilə «Ailə həkimi İnstitutunun yeni mərhələsində icbari tibbi sığortanın rolu» mövzusunda tədbir keçirilib.**



Tədbirdə çıxış edən Azərbaycan Tibb Universitetinin ailə təbabəti kafedrasının müdiri Mustafa Salihov bildirib ki, bu ildən ATU-da "Ailə həkimi" ixtisası üzrə rezidenturaya qəbul keçiriləcək: "Bu ixtisas üzrə rezidentlərin təhsil alması təmin ediləcək. Rezidenturanı bitirənlər "Ailə həkimi" ixtisasına yiyələnəcəklər". Səhiyyə Nazirliyinin kadrlar, elm və təhsil şöbəsinin aparıcı məsləhətçisi Təranə Əhmədova bildirib ki, səhiyyədə ailə həkimi institutunun rolunu gücləndirilməsinə ehtiyac var. Nazirlik rəsmisi regionlarda çalışan səhiyyə kadrlarının həvəsləndirilməsi üçün tədbirlərin genişləndiriləcəyini, məsələ ilə bağlı təkliflər hazırlandığını qeyd edib.

İTSDA-nın Səhiyyə Departamentinin səhiyyə siyasəti və kliniki kodlaşdırma şöbəsinin müdiri Şərafət İsmayılova bildirib ki, 2005-ci ilə kimi ölkənin tibbi kadr potensialı yetərincə olub: "O zaman Azərbaycanda həkimlərin sayı yüksək idi. Lakin hazırda Azərbaycanda həkimlərin



sayı Avropa İttifaqı (Aİ) ölkələrindəki orta həkim sayından aşağıdır. Orta tibb işçilərinin sayı da azdır. Əgər lazımi tədbirlər görülməsə, müəyyən müddətdən sonra ölkə tibbi kadr çatışmazlığı ilə üzləşə bilər".

Dünya standartlarına görə, bir "Ailə həkimi"nə 2000 vətəndaş düşür. Azərbaycanda ailə həkimlərinin minimum 2000, maksimum 2500 nəfərə təhkim olunması nəzərdə tutulub. Onlar "Ailə həkimi"nin sığortalı vətəndaşlarıdır.

Tədbirdə həmçinin qeyd olundu ki, ailə həkimləri dövlət, özəl və bələdiyyə xəstəxanalarında fəaliyyət göstərə biləcəklər.

# "Pediatriyanın və respirativ təbabətin aktual məsələləri" mövzusunda elmi-tədris konfransı

**ATU-nun Tədris Terapevtik Klinikasında "Pediatriyanın və respirativ təbabətin aktual məsələləri. Sağlamlığa doğru addımlar" mövzusunda elmi-tədris konfransı işə başlayıb. Konfrans 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr edilib.**



Tədbir Azərbaycan Səhiyyə Nazirliyinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin (İ.M.Seçenov adına Birinci MDTU), Azərbaycan Allerqoloqlar, İmmunoloqlar və İmmunrebitoloqlar Cəmiyyətinin, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun və Rusiyanın "Səhiyyədə tərəfdaşlığın inkişafı" qeyri-hökumət təşkilatının dəstəyi ilə təşkil edilib.



ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov konfransın əhəmiyyətindən söz açaraq bildirib ki, belə bir önəmli gündə bu konfransı keçirmək çox əlamətdar hadisədir: "Konfransda müzakirə edəcəyimiz mövzular olduqca vacib məsələlərdir. Ümumiyyətlə, müasir pediatriyaya xas olan mövzular daim aktualdır. Biz həmişə vicdanla işləməyə çalışırıq. Bir pediatr kimi başlıca vəzifəmiz yenilikləri öyrənmək, işimizdə tətbiq etmək, uşaqların qayğısına qalmaqdır. Dünyanın bir sıra ölkələrində bu cür konfransların keçirilməsi müxtəlif ixtisaslı həkimlər arasında təcrübə mübadiləsi baxımından da böyük əhəmiyyət kəsb edir".

ATU-nun uşaq xəstəlikləri kafedrasının müdiri, akademik Adilə Namazova çıxışında pediatriyanın aktual məsələlərinə toxunub. Pediatr-allerqoloq, professor Amaliya Əyyubova, professor Natalya Qeppe və digərləri uşaqlarda yuxarı nəfəs yollarının və bronxial astmanın obstruksiyası, nəfəs yollarının xəstəxanadankənar infeksiyası, respirativ infeksiyalar məsələləri, uşaqlarda tənəffüs orqanlarının xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikasının müasir metodlarından söz açıblar.

Sonra elmi-tədris konfransının işi tematik sessiyalarda davam etdirilib. Professor Natalya Qeppe "Obstruktiv bronxitdən bronxial astmaya: yerli və xarici klinikaların tövsiyə materialları əsasında", professor Lyudmila Kozlova "Uşaqlarda xəstəxanadankənar pnevmoniyanın müalicəsində yol verilən səhvlər və onların düzəldilməsi", professor Lalə Allahverdiyeva "Respirativ patologiyası olan uşaqlarda sublinqval immunoterapiyanın klinik-immunoloji effektivliyi", professor Aleksandr Malaxov "Bronxitlər və xəstəxanadankənar pnevmoniya: diaqnozdan müalicəyə", professor Dmitri Deqtyaryov "Yarımçıq doğulmuş uşaqlarda bronxağciyər diplaziyasının qarşısının alınması və müalicəsinin müasir prinsipləri", tibb üzrə fəlsəfə doktoru Sevda Əsədova "Yarımçıq doğulmuş uşaqlarda respirativ distress-sindromun terapiyasının müasir praktikası", dosent İvan Dronov "Artan antibakterial rezistentlik şəraitində rasional antibiotikoterapiya", dosent Yekaterina Yablokova "Mədə-bağırsaq traktının normal və patoloji mikrobiotu haqqında təsəvvür. Uşaqlarda heliobakterial infeksiyanın terapiyası prinsipləri" mövzularında məruzələrlə çıxış ediblər.

Qeyd edək ki, tədbirdə uşaqlarda bronxial astma, allergiya, pnevmoniya və respirtaiv sistemin digər xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikası məsələləri müzakirə olunub. Konfransın həmsədrləri Birinci MDTU-nun uşaq xəstəlikləri kafedrasının müdiri, Pediatrik Respirator Cəmiyyəti Şurasının sədri, professor Natalya Qeppe, Azərbaycan Allerqoloqlar, İmmunoloqlar və İmmunrebitoloqlar Cəmiyyətinin prezidenti, MDB ölkələri Allerqoloqlar və İmmunoloqlar Şurasının vitse-prezidenti, professor Amaliya Əyyubova, professor Hüseyn Qabulov, ATU-nun immunologiya və allerqologiya kafedrasının müdiri, professor Lalə Allahverdiyeva və ATU-nun I uşaq xəstəlikləri kafedrasının professoru, Səhiyyə Nazirliyinin baş pediatrı Nəsib Quliyevdir.

**ATU-nun mətbuat xidməti**

# YAY İMTAHAN SESSİYASI UĞURLA DAVAM EDİR

**Artıq Azərbaycan Tibb Universitetində yaz semestrinin yay imtahan sessiyası başladığından Virtual Test Mərkəzinin yerləşdiyi binanın önündə bir canlanma var. İmtahanı uğurla verib binadan çıxanların sevinci həyacanla imtahan verməyə gedənlərin həyəcanına qarışıb. Heç soruşmasan da belə, imtahandan müvəffəqiyyətlə çıxanların çöhrəsindən hiss olunur ki, keçid balı toplaya bilib.**












İmtahan gedən binanın girəcəyində əllərində metalaxtaran cihaz tutan iki nəzarətçi gözümə dəyir. Nəzarətçilərdən Nəriman Paşayev tələbələrin imtahan zalına telefon və digər vasitələr keçirməmələri üçün oğlanların, Elnarə Musayeva isə qızların üzərində baxış keçirirlər. Hiss olunur ki, imtahanın yüksək səviyyədə keçirilməsi üçün lazımi tədbirlər görülüb.

İmtahan Nəzarət Qrupunu rəhbəri Zümrüd Abbaszadə də bunu təsdiqlədi. Bildirdi ki, hansısa vasitənin zala daşınmasının qarşısını almaq üçün tələbələrin üzərində metalaxtaran cihazlar vasitəsilə baxış keçirilir. Nəzarət yüksək səviyyədədir. Tərəfimizdən qulaqcıq, telefon, eynək və digər vasitələrin içəri keçirilməsinin qarşısı alınır.

## "Əsas istəyimiz tələbələri əzbərçilik vərdişlərindən uzaqlaşdırmaqdır"

İmtahanın gedişi ilə yaxından tanış olmaq üçün Virtual Test Mərkəzinin direktoru, dosent Şahin Bayramova yaxınlaşırıq. Onun bildirdiyinə görə, mayın 11-də başlayan imtahanlar iyulun 5-dək davam edəcək: "Hazırda 3 fəndən Dövlət imtahanı gedir. I müalicə-prfolaktika fakültəsinin tələbələri "Mamalıq və ginekologiya", II müalicə-profilaktika fükültəsinin tələbələri "Cərrahi xəstəliklər", Hərbi tibb fakültəsinin kursantları " Cərrahiyyə və hərbi səhra cərrahiyyəsi"ndən imtahan verir. İndiyədək 12 min imtahan olub. İmtahanlar 2 formatda aparılır. Birinci format qapalı suallar şəkilində bütövlüklə internetə yüklənib və həmin sualları tələbələr görür. İkinci formatda isə tələbəyə düşən 25 sualın 10-u açıq sualdır. Yəni açıq suallar internetə yerləşdirilmədiyindən, tələbə həmin sualları görmür. Bu səbəbdən imtahan vaxtı hansı sual düşəcəyini tələbə bilmədiyi üçün məcburdur ki, kitabı oxusun. Bu formatın tətbiqinin artıq müsbət nəticələrini də görürük. Ötən günlər verilən imtahanların nəticələri bu barədə fikir yürütməyə imkan verir. Elə istəyimiz də odur ki, tələbə kitabı mütaliə etsin, əzbərçilik vərdişlərindən uzaqlaşsın, öz üzərində işləsin. Açıq sualların tətbiqi ilə həm də tələbənin kitab oxumağa tələbatı artır. Əgər tələbə qapalı suallarla imtahana hazırlaşsa, maksimum 30 bal toplaya bilər, bu da onlar üçün yetərli deyil. 20 balın açıq suallardan toplanması zərurətindən tələbələr dərsliyi mənimsəməyə məcburdurlar". Biz iyunun 6-da VTM-də olarkən Ş.Bayramov bildirdi ki, dünən 800-ə yaxın tələbə "Normal fiziologiya"dan imtahan verib və onlardan 20 nəfəri 50 bal toplayıb: "Düzdür, əvvəllər yüksək bal toplayanların sayı 120-ə çatırdı, indi 20 nəfərdir. Əsas hədəfimiz tələbələrin keyfiyyətli şəkildə imtahana hazırlaşmasıdır. Getdikcə tələbələr də anlayırlar ki, əzbərçilikdən uzaq olmaq, diqqətlə kitab oxumaq lazımdır. Tələbələrdən də gözlədiyimiz elə odur. Ona doğru da gedirik."

## "Biz bilik və bacarıqları yaxşı mənimsəməsək, insanların sağlamlığı keşiyində necə dura bilərik?"

Bəs tələbələr bu imtahanın gedişindən razıdırlarmı? Onların və Dövlət İmtahan Komissiyasının sədrlərinin, nəzarətçilərin bu barədə fikirlərini öyrənməyə çalışırıq. Hərbi tibb fakültəsinin kursantları da Dövlət imtahanına qatılıblar. Bizim üçün də maraqlı oldu ki, Vətənimzin keşiyində duran əsgər və zabitlərin sağlamlığının gələcəkdə etibar ediləcəyi şəxslər bilik və bacarıqları hansı səviyyədə mənimsəyiblər? Hərbi tibb fakültəsinin rəisi, t/x polkovniki Çingiz Əlləzov 76 kursantın "Cərrahiyyə və hərbi səhra cərrahiyyəsi"ndən verdiyi imtahanın çox şəffaf keçdiyini və heç bir narazılıq olmadığını qeyd etdi. Rəis kursantların yüksək bilik nümayiş etdirdiklərindən məmnun qaldığını vurğuladı.

Hərbi tibb fakültəsinin kursantı İlham Mikayıllının çöhrəsi gülürdü. Hiss olunurdu ki, imtahandan yaxşı nəticə əldə edib. Fikrini öyrənirik: "Həmişə olduğu kimi yenə də də 50 bal topladım. Əgər yaxşı oxuyacaqsansa, yaxşı da qiymət alacaqsan. Zəhmətə qatlaşmalısan ki, uğur əldə edə biləsən. Çünki biz yaxı oxumasaq, bilik və bacarıqları yaxşı mənimsəməsək, insanların sağlamlığı keşiyində necə dura bilərik? Bununla iki imtahan vermişəm, ikisindən də 50 bal toplamışam. Hesab edirəm ki, növbəti imtahanlarda da müvəffəqiyyət qazanacağam."

## "Tələbələr OSKİ imtahanının tətbiqindən razıdırlar"

Elmi-Tədqiqat Ağ Ciyər Xəstəlikləri İnstitunun direktoru, I müalicə-profilaktika fakültəsinin Dövlət İmtahan Komissiyasının sədri, professor Həqiqət Qədirova bildirdi ki, iyunun 1-dən başlayaraq, hər gün 7 qrupda 75 tələbə imtahan verir. İmtahanlar çox mütəşəkkil formada təşkil olunub: "Tələbələr vərdişlərlə bağlı ayrı-ayrı yerlərə yaxınlaşıb, öz vərdişlərini 3 dəqiqə ərzində komissiya üzvlərinə nümayiş etdirirlər. Nəticələr də göstərir ki, tələbələr OSKİ imtahanlarının tətbiqindən razıdırlar və fakültə üzrə 302 tələbə imtahan verəcək."

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun psxiatriya və narkologiya kafedrasının müdiri, II müalicə-profilaktika fakültəsinin Dövlət İmtahan Komissiyasının sədri, professor Teymur Qafarov da imtahanların gedişindən razıdır: "Müvafiq tələblərə uyğun olaraq imtahan vaxtında başlayıb, obyektiv və çox mütəşəkkil keçir. Tələbələr ümumilikdə yüksək bilik nümayiş etdirirlər. Bundan əvvəl keçirilən imtahanda da tələbələr qazandıqları vərdişləri necə mənimsədiklərini göstərdilər. Hazırda kurs imtahanı gedir, çox ahəngdir. Heç bir tələbə o birinə maneçilik törətmir"- deyən sədr, imtahanda 400 nəfərə yaxın tələbənin iştirak edəcəyini bildirdi.

## "Nə texniki cəhətdən, nə də nəzarətçilərllə bağlı heç bir problemimiz yoxdur"

Zallarda nəzarətçilərin də diqqətlə imtahanı izləmələri, tələbələrin davranışlarına göz qoymaları bir daha ondan xəbər verirdi ki, kitabları mütaliə etməkdən başqa ayrı çıxış yoları yoxdur. Nəzarətçilərdən Zülfiyyə İsgəndərova, Pəri İsaqova və digərləri hər şeyin qaydasında olduğunu, imtahanın gedişinə yüksək səviyyədə nəzarət olunduğunu bildirdilər. Eyni fənndən imtahan verənlərin yanaşı düşməməsi üçün ciddi nəzarət edildiyini, texniki və nəzarətçilər baxımından heç bir problem olmadığını qeyd etdilər.

II müalicə-profilaktika fakültəsinin tələbəsi Bahar Məmmədova "Cərrahi xəstəliklər"dən Dövlət imtahanı verib. Müvəffəqiyyət qazandığını bildirir. Verdiyi iki imtahanın nəticələrindən məmnundur.

I müalicə-profilaktika fakültəsinin tələbələri Rəşad Əliyev, Röya Alxasova, Səidə Şindiyeva da "Mamalıq və ginekologiya"dan verdikləri imtahanların nəticələrindən razıdırlar. Hər üçü müvəffəqiyyət qazanıb.

Rəşad Əliyev 46, Röya Alxasov 48, Səidə Şindiyeva isə 47 bal toplayıb. Hər üçü növbəti imtahanları da müvəffəqiyyətlə verəcəklərinə əmin olduqlarını bildirdilər. Gələcəkdə rezidentura təhsil pilləsində təhsillərini davam etdirmək arzusundadırlar. Məqsədləri savadlı mütəxəssislər kimi insanların sağlamlığı keşiyində durmaqdır.

Universitetdə fəaliyyət göstərən Apellyasiya Komissiyasını imtahanın gedişinin güzgüsü də hesab etmək olar. Çünki narazı olan tələbələr birbaşa bura müraciət edir. Vəziyyətlə tanış olmaq üçün komissiyanın üzvü, professor Vaqif Vəkilovun qəzetimizə açıqlamasını aldıq: "İyunun 1-dən başlayan imtahanlardan bu günə qədər 109 müraciət olunub. Onlardan 67-si əsaslı olub. Qalanları isə əsassız olduğu üçün nəzərə alınmayıb. Müraciət edənlərin isə bəziləri gəlmədiyi üçün onların müraciətlərinə baxılmayıb. Fəaliyyətimiz şəffafdır. Tələbələrin heç biri gəldiyimiz nəticələrdən narazı qalmayıb".

**Qabil ABDULLAYEV**

# Tədris Cərrahiyyə Klinikasında ənənəvi növbəti seminar keçirilib

**İyunun 1-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında Türkiyənin qabaqcıl səhiyyə qurumlarından hesab olunan "Acıbadem Sağlıq Qrupu" ilə Azərbaycan Tibb Univesitetinin I cərrahi xəstəliklər kafedrasının birgə təşkilatçılığı ilə seminar keçirilib. Seminarı klinikanın direktoru, professor Surxay Hadıyev açaraq, həkimlərin bilik səviyyəsinin artırılması istiqamətində bu tədbirin əhəmiyyətindən danışıb və iştirakçılara uğurlar arzulayıb.**






Seminarda Acıbadem Universitetinin Türkiyədə və Avropa miqyasında tanınmış tibb üzrə mütəxəssisləri çıxış ediblər. Onlardan professor, dr. Remzi Emiroğlunun "Pediatrik xəstələrdə cərrahi üsul və mühazirələr", professor, dr. Hamdi Karakayalının "Portal damar trombozu", professor, dr. Vilidan Ertekinin "Pediatrik xəstələrdə qaraciyər nəqləri" adlı məruzələri iştirakçılar tərəfindən maraqla dinlənilib.

Tədbir geniş diskussiya və sual-cavab əsasında başa çatıb.

Məruzələrdə, həmçinin, uşaqlarda cərrahi müdaxilələr zamanı həkimlərin üzləşdiyi problemlər və çıxış yolları ilə bağlı məqamlara toxunulub. I cərrahi xəstəliklər kafedrasının müdiri, professor Nuru Bayramov "Təbib" qəzetinə açıqlamasında onun rəhbərlik etdiyi kafedranın ənənəvi olaraq ayda bir-iki dəfə cərrahi problemlərlə əlaqədar konfranslar keçirdiyini bildirib. Bu seminarın da pediatrik xəstələrdə cərrahiyyənin müxtəlif problemlərinə həsr olunduğunu qeyd edib. Tədbirdə iştirak edən həkimlərin bu seminardan fayda götürdüklərini, cərrahi müdaxilələr zamanı dünya praktikasında tətbiq edilən yeniliklərlə tanış olduqlarını əminliklə vurğulayıb.

## AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ "ANATOM, HİSTOLOQ VƏ EMBRİOLOQLAR ELMİ CƏMİYYƏTİ" İCTİMAİ BİRLİYİNİ DÖVLƏT QEYDİYYATINA ALIB

**Azərbaycanda tibb sahəsində mövcud olan elmi cəmiyyətlər arasında "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" özünəməxsus yer tutur və çoxşaxəli spektr spesifikliyi, tarixi meyarları, funksional göstəriciləri ilə bu sahə üzrə fəaliyyət göstərən alimlərin diqqətini cəlb edir. Tarixi baxımdan Azərbaycan "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" rəsmi olaraq 1953-cü ildə əməkdar elm xadimi, professor Kamil Balakişiyevin təşəbbüsü ilə yaradılıb və alim 20 il müddətində – ömrünün sonuna qədər (1973) – həmin elmi cəmiyyətin sədri vəzifəsində çalışıb.**

Ölkəmiz müstəqillik əldə etdikdən sonra yeni müstəvidə belə bir cəmiyyətin yaradılmasına ciddi ehtiyac yarandı. Azərbaycan Tibb Universitetinin insan anatomiyası, histologiya, embriologiya və sitologiya, eləcə də tibbi biologiya kafedralarının müdirləri məsləhətləşərək, "Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti" İctimai Birliyini yaratmaq haqqında razılığa gəldilər.

Bundan sonra, müvafiq tələbata uyğun olaraq, lazımi sənədlər tərtib olunub və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, eləcə də Azərbaycan Tibb Universiteti rektorluğunun tövsiyə və icazələri ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə müraciət edilib. Cari ilin aprel ayının 24-də həmin ictimai birlik Ədliyyə Nazirliyi tərəfindən Dövlət qeydiyyatına alınıb. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Qeyri-Kommersiya Qurumlarının Dövlət Reyestrindən çıxarış və həmin Nazirliyin Qeyri-Kommersiya Hüquqi Şəxsinin Dövlət Qeydiyyatı haqqında "Şəhadətnamə" qanuni təmsilçiyə təqdim edilib. Bu sənədlərdə həm də qurumun fəaliyyət ərazisi, fəaliyyət predmeti və məqsədi, icra orqanlarının tərkibi və səlahiyyət müddəti öz əksini tapıb. Qanuni təmsilçi və ictimai birliyin İdarə heyətinin sədri – İnsan anatomiyası kafedrasının müdiri, REA-nın akademiki, a.e.x., professor V.Şadlinski, sədrin müavini – histologiya, embriologiya və sitologiya kafedrasının müdiri, tibb üzrə elmlər doktoru, professor E.Qasımov təyin edilib.

Şübhəsiz ki, Dövlət qeydiyyatına alınan ictimai birlik müstəqil Azərbaycan Respublikasının anatomiya, histologiya və tibbi biologiya sahələrində çalışan alimlərin yenidən bir araya gətirilərək, onların məlumat mübadiləsini təmin etmələrinə, elmi araşdırmaları, təhsili, praktik təcrübələri inkişaf etdirmələrinə və dəstəkləmələrinə, tibbin digər elm sahələri ilə qarşılıqlı əlaqələr yaratmalarına, innovativ texnologiyaların köməyi ilə birgə səylər göstərmələrinə, eləcə də dünya tibb elminə inteqrasiya etmələrinə əlverişli şərait yaradacaq, morfoloji elmlərin inkişaf perspektivlərinə yeni istiqamət verəcəkdir.

**Mübariz ALLAHVERDİYEV,**
*İnsan anatomiyası kafedrasının professoru*

**Havaların istiləşməsi ilə əlaqədar qan dövranı sistemi xəstəlikləri ilə bağlı şikayətlər də artır. Təsadüfi deyil ki, planetin yaşlı əhalisinin ölümünə əsas səbəb ürək-qan damar sistemi xəstəlikləridir. Ölüm hallarının səbəbləri arasında ilk yeri qan dövranı sistemi xəstəlikləri tutur. ABŞ Sağlamlıq İnstitutunun araşdırmaları bu nəticəyə gəlməyə əsas verir ki, yaşlı əhali arasında ürək-damar sistemi xəstəliklərinin kişilərdə 64%, qadınlarda isə 60%-ni tac damar xəstəliyi təşkil edəcək.**



# D vitamini və yaşlı şəxslərdə ürək-damar sistemi xəstəlikləri

Azərbaycan Tibb Universitetinin II daxili xəstəliklər kafedrasının assistenti, t.ü.f.d Lamiyə Quliyevanın sözlərinə görə, qocalmanın əmələ gəlməsində bir çox faktor rol oynayır. O qeyd edir ki, son illər insan bədənində vitamin D defisitinin öyrənilməsinə dair çoxlu elmi araşdırmalar aparılıb: "Ədəbiyyatda göstərilir ki, yaşdan asılı olaraq, fibrinogenin və həmçinin, qanda nisbi laxtalanma sisteminin artması trombozun əmələ gəlməsi ilə əlaqədar metabolik pozğunluqlara səbəb olur. Damardaxili trombun əmələ gəlməsinin ürək-qan damar sistemi xəstəliklərinin, o cümlədən Ü.İ.X. inkişafında xüsusi rolu vardır. Ü.İ.X. fəsadlaşmasında damardaxili fəaliyyətin stabilliyinin, trombositlərin funksional vəziyyətinin və eləcə də, lipidlərin pozulması, oksidləşmə prosesinin aktivləşməsi xüsusi rol oynayır".

L.Quliyevanın bildirdiyinə görə, son illər ABŞ və Böyük Britaniyada müəyyən edilib ki, vitamin D statusunun bədəndə aşağı düşməsi ürək və damar xəstəliklərinin inkişafına yol açır. Vitamin D defisitinin əmələ gəlməsi ürək-damar sistemi xəstəliklərinin yaranmasına səbəb olur: "Amerika alimlərindən D. Martins və digər müəlliflər ABŞ-ın yaşlı əhalisi arasında vitamin D-nin qan zərdabında miqdarı və ürək-damar xəstəliklərini öyrənərək müəyyən ediblər ki, orqanizmdə vitamin D-nin aşağı olması hipertoniya, şəkərli diabet, piylənmə və ürək-damar sistemi xəstəliklərinin inkişafına gətirib çıxarır".

Qeyd edək ki, 2009-cu ildə J.Kendrick miokard infarktının inkişaf etməsində vitamin D-nin defisiti, 2012-2014-cü illərdə J.R.Chaudhuri və digərləri, Q.Sun 25 (OH) D risk faktoru kimi insultun inkişafındakı rolunu öyrəniblər. Belə faktorlardan ürək-qan-damar sistemi xəstəliklərində, o cümlədən ürəyin işemik xəstəliyinin patogenezində trombositlərin keyfiyyətcə dəyişilməsi xüsusi rol oynayır.

Lamiyə Quliyeva qeyd edir ki, belə problemlər təbabətdə bir çox həkimləri - cərrahları, terapevtləri, kardioloqları, nevroloqları, onkoloqları, travmatoloqları, ginekoloqları və ortopedləri eyni səviyyədə narahat etməyə bilməz: "Bu problemlərdən ən aktual olanlarından biri də damardaxili tromblarının əmələ gəlməsidir. Kəskin tac-damarı və beyin-qan dövranında olan pozğunluqlar, əməliyyatdan sonra onkoloji xəstəliklərdə əmələ gələn tromboemboliyalar, hamiləliyin erkən pozulması və digər xəstəliklərin inkişaf etməsinin əsasını damar daxili trombogenez təşkil edir. Ona görə də trombositlərin morfofunksional xüsusiyyətləri hemostazın mərkəzi hissəsini təşkil etməklə qocalmada və patologiyada antitrombositar müalicənin xüsusi əhəmiyyəti vardır".

L.Quliyevanın bildirdiyinə görə, ürək-qan-damar, arterial hipertoniya, ateroskleroz, şəkərli diabet, onkoloji xəstəliklər, immun sistemində gedən dəyişikliklər, allerqoloji xəstəliklər, auto-immun sistemdə gedən xəstəliklərin inkişaf etməsində aparılan epidemioloji və kliniki müayinələr müəyyən edib ki, D vitamininin orqanizmdə miqdarının aşağı olması göstərilən xəstəliklərin inkişaf etməsinə səbəb olan faktorlardan biridir. Orqanizmdə D vitamininin defisitinin olması ürək damar xəstəliklərinin əmələ gəlməsinə səbəb olur.

"Amerika alimlərindən J.P.Forman 2013-cü ildə müəyyən edib ki, arterial hipertoniya olan xəstələrdə D vitamininin dozasının 4000 BV sutkada qəbul etməsi nəticəsində sistolik arterial təzyiqin aşağı düşməsi müəyyən edilib. Amerika alimlərinin apardığı müayinələr göstərib ki, günəş şüası ilə az şüalanan kənd və şəhər əhalisi arasında təbii şüanın az olması nəticəsində yoğun bağırsağın xərçəngi xəstəliyi daha çox rast gəlinib və bunun əmələ gəlməsinə səbəb D vitamininin çatmazlığı ilə əlaqələndirilib" – deyə, L.Quliyeva qeyd edib.

Onun sözlərinə görə, yuxarıda göstərilənlərə əsasən belə nəticəyə gəlmək olar kı, ürək-qan damar xəstəliklərini yaşlı insanlar arasında inkişaf etməsinə səbəb damardaxili trombun əmələ gəlməsi və trombositlərin ultra-strukturunun pozulması ilə yanaşı, D vitamininin çatmazlığıdır.

**ATU-nun mətbuat xidməti**

# İstedadlı alim

**Görkəmli alim, böyük pedaqoq, AMEA-nın müxbir üzvü, Rusiya Təbiət Elmləri Akademiyasının akademiki, əməkdar elm xadimi, professor Sudeif Bəşir oğlu İmamverdiyevin 80 yaşı tamam olur.**

Sudeif Bəşir oğlu İmamverdiyev 1938-ci il iyulun 2-də Astara şəhərində müəllim ailəsində anadan olmuşdur. O, Astara şəhər orta məktəbinin rus bölməsini bitirərək Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinin Azərbaycan bölməsinə qəbul olunub və institutu 1962-ci ildə bitirib. 1962-1963-cü illərdə qornizon hospitalının cərrahı kimi çalışıb və təkmilləşib. Ordudan təxris olaraq o, 1963-ci ildə Bakıda Mirqasımov adına Respublika Xəstəxanasının uroloji şöbəsində ordinator vəzifəsində işləyib. S.İmamverdiyevin uğurlu elmi-praktiki işi nəzərə alınaraq 1965-ci ildə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitunun urologiya kafedrasında assistent vəzifəsinə seçilir. O dövrdən indiyə qədər elmi-pedaqoji işlə məşğuldur. 1968-ci ildə uro-onkologiya sahəsində tibb üzrə fəlsəfə doktoru dissertasiyasını müdafiə edir. 1971-ci ildə S.İmamverdiyev Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahi xəstəliklər kafedrasına assistent vəzifəsinə keçir və 1972-ci ildə doktorluq dissertasiyası işini davam etdirmək üçün Moskva şəhərinə Ümumittifaq Elmi-Tədqiqat Klinik və Eksperimental Cərrahiyyə institutuna ezam olunur. O, 1974-cü ildə Moskvada tibb üzrə elmlər doktoru dissertasiyasını uğurla müdafiə edir. Bakıya qayıdandan sonra Azərbaycan Tibb İnstitutunda urologiya kafedrasının yaradılması üçün səylər göstərir və ona nail olur. S.İmamverdiyev 1976-cı ildən Azərbaycan Tibb İnstitutunun urologiya kafedrasında dosent, 1977-ci ildən professor, 1990-cı ildən etibarən isə kafedranın müdiri vəzifəsində çalışır.



56 il həkimlik, 53 il elmi–pedaqoji fəaliyyətini davam etdirən S.İmamverdiyev 1964-cü ildə Azərbaycanda limfoqrafiya müayinəsini ilk dəfə həyata keçirərək bundan ötəri mexaniki aparat təklif edir, bu müayinəni sümük daxili çanaq fleboqrafiyası ilə birlikdə aparır ki, o dövrdə uro-onkoloji praktikada bu müayinələr böyük diaqnostik əhəmiyyət kəsb edirdi. 1968-ci ildən başlayaraq o, Azərbaycanda ilk olaraq aortoqrafiyanı geniş tətbiq etməyə başlayır və onun nəticəsi kimi, 1970–ci ildən ölkəmizdə böyrək arteriyalarında rekonstruktiv əməliyyatlar, yəni böyrəkdamar mənşəli hipertoniyanın cərrahi müalicəsi geniş vüsət alır. Onun səyi nəticəsində damar müayinələri: çanaq arterioqrafiyası, venakavaqrafiya, böyrək üstü vəz mənşəli hipertoniyası olanlarda pnevmoretroperitoneum, qarın aortası və şaxələrinin xəstəliklərində Dos Sanos üsulu ilə translyumbal aortoqrafiya geniş tətbiq olunur ki, ağır qrup xəstələri müalicəsinə öz təsirini gösdərir.

1977-ci ildən başlayaraq S.İmamverdiyev böyrəklərin mərcanvari və çoxlu daşları olan xəstələrin cərrahi müalicəsi sahəsində böyük uğurlar qazanıb, bu istiqamətdə təklif etdiyi üsullar, yanaşmalar indi də klinikada uğurla tətbiq olunmaqdadır. 1977-ci ildən başlayaraq ölkəmizdə sidikliyin yayılmış xərçəngi olan xəstələrdə aparılan üzv saxlayıcı, üzvün tam götürülməsi əməliyyatlarının uğuru S.İmamverdiyevin səyləri hesabına reallaşmışdır.

O, ölkəmizdə ilk dəfə 1984-cü ildən böyrək şişlərində üzv saxlayıcı əməliyyatları uğurla aparmağa başlayır və 1995-ci ildə ölkəmizdə ilk dəfə radikal prostatektomiyanı həyata keçirir. Ölkəmizdə Uro-ginekologiyanın inkişafı sahəsində S.İmamverdiyev 1977-ci ildən böyük uğurlar qazanır və hazırda uro-genital fistulaların cərrahi müalicəsində 100%-lik uğura nail ola bilib. Beynəlxalq praktikada bu ən yüksək nəticədir. Fitri cərrahi istedada malik olaraq o, nefroptozun, prostat vəzinin xoş xassəli hiperplaziyasının cərrahi müalicəsində, andrologiya sahəsində yeni əməliyyatların tətbiqi sahəsində də yeni üsullar tətbiq etmiş, ya da ilk olaraq ölkəmizdə aparıcı olmuşdur.

S.İmamverdiyev 13 ixtira və səmərələşdirici təklifin Azərbaycan, rus, ingilis, fransız, gürcü, ərəb dillərində 385 elmi əsərin (o cümlədən 4 dərslik, 10 monoqrafiya, 5 metodik, 6 dərs vəsaiti) müəllifidir. Onun rəhbərliyi altında 20 namizədlik, 5 doktorluq dissertasiyası müdafiə olunub, hazırda 2 doktorluq dissertasiyası müdafiə prosesini keçir, 2 doktorluq və 2 namizədlik dissertasiyası hazırlanır. Onun təklif etdiyi bir neçə cərrahi üsul və yeni yanaşmalar hazırda klinikada uğurla həyata keçirilir.

Professor S.İmamverdiyev 1984-1991-ci illərdə Azərbaycan Herontoloqlar Cəmiyyətinin sədri, 1986-cı ildən Səhiyyə Nazirliyinin Baş herontoloqu olmuşdur, 1989-cu ildən Ümumittifaq Herontoloqlar Cəmiyyətinin İdarə Heyətinin Prezidiumunun üzvü, 1990-cı ildə Ümumittifaq Uroloqlar Cəmiyyəti idarə heyətin üzvü seçilmişdir.

O, 1984-1991-ci illərdə Respublika Səhiyyə Nazirliyinin Urologiya və Nefrologiya Attestasiya Komissiyası sədrinin müavini, 1995-2002-ci illərdə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Özəl Ali və Orta İxtisas Tədris Müəssisələrinin Ekspertiza Komissiyasının üzvü olmuşdur.

O, 2001-ci ildə AMEA –nın müxbir üzvü, 2011-ci ildə Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, 2007-ci ildə Türkiyə Androloqlar, 2002-ci ildə Gürcüstan Uroloqlar Assosiyasiyalarının fəxri üzvü seçilmiş, ölkəmizdə və xaricdə bir neçə jurnalların redaksiya heyəti və şurasının üzvüdür. Onun rəhbərliyi ilə 2004-cü ildə Uroloqlar Assosiyasiyası yaranır və aktiv fəaliyyətini davam etdirir. Onun dəstəyi ilə 2007-ci ildə ölkəmizdə Andrologiya və Reproduktiv Təbabət Assosiyasiyası təşkil olunur və S.İmamverdiyev onun fəxri sədri seçilir.

O, 1993-cü ildən Avropa Uroloqlar Assosiasiyasının həqiqi üzvüdür, 15 ildən çoxdur ki, Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın üzvüdür. 2006-cı ildə elm və maarifçilik sahəsində görkəmli xidmətlərinə görə akademik Yusif Məmmədəliyev adına medalla təltif olunub. Elmi pedaqoji fəaliyyətinə görə o, Münhen şəhərində (Almaniya) 2013-cü ildə Avropa Elm və Sənaye Konsorsiumu (European Scientific and İndustrial consortium) tərəfindən Avropa keyfiyyəti qızıl medalı ilə (Gold medal of European quality), Əmək və Elm (Laboret Scienita ) medalı ilə təltif olunub.

Onun ictimai-siyasi fəaliyyəti göz qabağındadır. O, Ulu Öndər Heydər Əliyevə hakimiyyət rəhbərliyinə gəlmək üçün müraciət edən „91``-lərdən biridir və 1992-ci ildən bu günə kimi Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvüdür, 1995-ci ildən 2005-ci ilədək Müstəqil Azərbaycan Dövlətinin Milli Məclisinin (I və II çağırış) deputatı olmuş, hazırda (2013-cü ildən) Azərbaycan Respublikası Ağsaqqallar Şurası sədrinin müavinidir. Ölkə Prezidentinin sərəncamı ilə S.İmamverdiyev 2000-ci ildə "Şöhrət" ordeni, 2008-ci ildə "Əməkdar Elm Xadimi" fəxri adı, 2013-cü ildə "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif olunub, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə layiq görülüb. O, dəfələrlə ATU-nun, Azərbaycan Səhiyyə Nazirliyinin, AMEA-nın Fəxri fərmanları ilə təltif olunub.

Görkəmli alim və ictimai dövlət xadimi, parlaq həyat yolu ilə hamımıza örnək olan böyük Azərbaycan cərrahı S.İmamverdiyevi 80 illik yubileyi münasibətlə təbrik edir, ona aktiv fəaliyyətini davam etdirmək yolunda yeni–yeni uğurlar və nailiyyətlər arzulayırıq.

**Urologiya kafedrasının əməkdaşları**

**Yunan–Roma güləşi üzrə "SSRİ İdman Ustası", respublikanın "Əməkdar İdman Xadimi", "Fərdi Prezident mükafatçısı", "Əməkdar məşqçi", "Fəxri Bədən tərbiyəsi və İdman işçisi", Milli Olimpiya komitəsinin və FİLA-nın indiki UWW-"United Wold Wrestlinq" Dünya güləş birliyinin uzvü, beynəlxalq dərəcəli hakim, Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun güləş bölməsi üzrə müəllim-məşqçisi, professor Zakir Ələkbər oğlu Məmmədovun 65 yaşı tamam olur.**

# İdmanı tələbələrinə sevdirən müəllim-məşqçi

1953-cü ildə Baki şəhərində doğulan Zakir Məmmədov Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirdikdən sonra Daxili İşlər Nazirliyinin (DİN) "Dinamo" idman cəmiyyətində yunan-roma güləşi üzrə məşqçi kimi əmək fəaliyyətinə başlamışdır. "Dinamo" idman cəmiyyətində işlədiyi vaxt ərzində bir çox "SSRİ idman ustası", müxtəlif yüksək dərəcəli idmançılar və ixtisaslı mütəxəssislər hazırlamışdır.

1983-cü ildən indiyədək ATU-nun bədən tərbiyəsi və idman kafedrasında çalışan Z.Məmmədov bu müddətdə idman sahəsində dissertasiya işi müdafiə edərək pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsini almış, göstərdiyi nailiyyət və fəaliyyətlərinə görə isə professor adına layıq görülmüşdür. İdman sahəsinə aid 50-ə yaxın elmi-pedaqoji məqalənin, dərs və tədris metodiki vəsaitlərinin müəllifidir.

Z.Məmmədov 1980-1982-ci illərdə Moskvada yunan-roma güləşi üzrə SSRİ "Dinamo" idman cəmiyyətlərinin gənclərdən ibarət yığma komandasının məşqçisi olmuşdur. Dünyanın ən böyük arenalarında onun tələbələri gənclər arasında SSRİ, dünya, Avropa və beynəlxalq yarışların həm mükafatçıları, həm də çempionları olmuşdur. O, uşaq internat idman məktəbinin güləşçilərini də yarışlara hazırlamışdır.

Avropa və dünya miqyaslı beynəlxalq çempionatlara hakimlik edən Z.Məmmədov bir sıra beynəlxalq yarışlara hakimlərin rəhbəri kimi də dəvət olunmuşdur. Beynəlxalq dərəcəli hakimliyə imtahan verən münsiflər heyətinə dəfələrlə üzv təyin edilmişdir. O, FİLA-nın konfrans və seminarlarında iştirak etmiş, mühüm yarış və görüşlərdə diplom və mükafatlarla təltif edilmişdir.

Professor Z.Məmmədov hal-hazırda Azərbaycan Tibb Universitetinin "Təbib" idman klubunun güləş bölməsində müəllim-məşqçi kimi fəaliyyətini davam etdirir. "Təbib" idman klubunda tələbələrin idmanla məşgul olmaları üçün hər bir şəraitin yaradılması gənclərin bura gəlişini artırmışdır.



Elə buna görədir ki, ATU-nun "Təbib" idman klubunun digər bölmələri ilə yanaşı, güləş bölməsinə də tələbə axını çoxdur və onlar böyük həvəslə məşq edirlər. Professor Z.Məmmədov da idmançı tələbələrə güləşin və hakimliyin lazım olan sirrlərini öyrədir və yarışlara hazırlayır. Bu günə kimi Olimpiya oyunlarının iki güləş idman növü üzrə Bakida və ali məktəblər arasında keçirilən bir çox yarışlarda ATU-nun tələbələri uğurla iştirak etmiş və dəfələrlə (yəni hər il) komandalarının hesabına ən yüksək xalları qazandırmışlar. 2018-ci ilin 22-26 may ayında keçirilən güləş yarışlarında ATU-nun 18-tələbəsindən 16-sı qızıl, gümüş və bürünc medalların sahibi olmuşdur.

Zakir müəllim inanır ki, tələbələr gələcəkdə öz peşə fəaliyyətlərində hər zaman ədaləti təmsil edəcəklər. Onun əsas məqsədlərindən biri də tələbələrin sağlamlığını yaxşılaşdırmaq, hərtərəfli fiziki və mənəvi cəhətdən inkişaf etdirmək, hər an vətənimizə layıqlı gənclər yetişdirməkdir. Professor Zakir Məmmədova işində uğurlar arzulayırıq.

*«Təbib» idman klubunu əməkdaşları*

# "Klinik Laborator Diaqnostika" kitabının təqdimatı keçirildi

**Azərbaycan Tibb Universitetinin mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları dosent Ramin Bayramlı və baş müəllim Yavər Hacısoyun "Klinik laborator diaqnostika" adlı yeni kitabı çapdan çıxıb. ATU-nun Tədris Cərrahiyyə Klinikasında kitabın təqdimatı keçirilib.**



Mərasimin əvvəlində çıxış edən klinikanın tədris işləri üzrə direktor müavini Davud Pənahov qeyd edib ki, kitabda ən çox rast gəlinən xəstəliklərin diaqnostikası, diaqnostika zamanı izlənilən immunoloji və digər müayinələr haqqında məlumatlar var. Kitab tibb sahəsində işləyən mütəxəssislər üçün zəruri bir vəsaitdir.

Daha sonra bioloji kimya kafedrasının müdiri, professor Arif Əfəndiyev yeni nəşrin bu sahənin mütəxəssisləri üçün əvəzsiz vəsait olacağından əminliyini bildirib. Onun sözlərinə görə, dərs vəsaitində praktik həkim üçün lazım olan xəstəliklərin mikrobioloji, immunoloji və biokimyəvi göstəricilərinə dair məlumatlar toplanaraq sistemləşdirilib.

Mikrobiologiya və immunologiya kafedrasının əməkdaşı, dosent Ramin Bayramlı kitab haqqında geniş məlumatla çıxış edib. Onun sözlərinə görə, kitabın əvvəlində analiz nəticələrinin xətalı və qeyri-düzgün çıxmasına səbəb ola biləcək preanalitik faktorlara xüsusi yer ayrılıb: "Bu, klinisistlərin öz xəstələrini müayinəyə hazırlamaları baxımından mühüm əhəmiyyət kəsb edir. Kitabda verilmiş məlumatlar yalnız ATU-nun tələbələri üçün deyil, eyni zamanda, klinik biokimya və klinik mikrobiologiya mütəxəssisləri, tibbi genetika sahəsində çalışanlar, ümumiyyətlə, həkim klinisistlər, rezidenturada təhsil alanlar və elmi işçilər üçün nəzərdə tutulub".

Vəsaitdən istifadə edəcək oxucular – tələbələr, rezidentlər, həkim-mütəxəssislər, hətta orta tibb işçiləri əlifba sırasına uyğun olaraq istədikləri mikrobioloji, immunoloji, biokimyəvi, molekulyar-genetik testi asanlıqla tapa bilərlər. Burada hər bir testin adı, sinonimləri, analiz üçün tələb olunan nümunənin növü və miqdarı, iş prinsipi, referens dəyərləri, klinik praktikada istifadəsi və analiz üçün götürülən nümunədən laboratoriyanın imtinaetmə kriteriyaları hərtərəfli və sadə dildə şərh olunub.

Kitabın sonunda klinik mikrobioloji müayinənin əsas prinsiplərinə və əksər laborator analiz parametrlərinin şərh olunduğu cədvəllərə yer verilib.

Qeyd edilib ki, bu nəşrin tələbələrin, həkim-rezidentlərin, orta tibb işçilərinin, ümumiyyətlə, həm diaqnostika, həm də müalicə sahəsində çalışan mütəxəssislərin masaüstü kitabı olacağı gözlənilir.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun cərrahları nüfuzlu beynəlxalq konqresdə təcrübə mübadiləsi ediblər

**Bu günlərdə Avropanın qədim ölkələrindən olan Yunanıstanın paytaxtı Afina şəhərində bariatrik-metabolik cərrahiyyəyə dair böyük toplantı – "8-th İFSO-EU Chapter Congress and 4-th MOSS meeting" keçirilib. Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri, ATU-nun I cərrahi xəstəliklər kafedrasının əməkdaşı, t.ü.f.d. Tariyel Ömərov və dərnəyin katibi, ATU-nun cərrahi xəstəliklər kafedrasının əməkdaşı Elçin Abdinov bu konqresdə iştirak ediblər.**



Dünyanın 60-dan çox ölkəsindən dəvət olunmuş 100-ə yaxın Bariatrik-Metabolik Cərrahiyyə üzrə mütəxəssisin məruzəçi qismində qatıldığı bu möhtəşəm konqres işini effektiv planlayıb. Tədbirdə ümumilikdə 600-dən çox cərrah iştirak edib.

Azərbaycan Bariatrik-Metabolik Cərrahlar Assosiasiyasının sədri Tariyel Ömərov konqresin elmi gündəliyində "The comparative analysis of sleeve gastrectomy with and without antrumectomy" mövzusu ilə bağlı çıxış edib, bu sahədəki təcrübəsini bölüşüb. T.Ömərovun sözlərinə görə, milli dərnək nümayəndəsi qismində Afinada təşkil olunan bu konfransda dünya şöhrətli professorların işləri, həmçinin bariatrik-metabolik cərrahiyyənin müasir nailiyyətləri ilə yaxından tanış olub, eyni zamanda öz təcrübələrinə dair fikir mübadiləsi aparıblar: "Məlumdur ki, biz dörd ildir ki, bu sahədə yeni modifikasiya tətbiq edirik. Baritrik-metabolik cərrahiyyədə bir yenilik olan bu metodu 3 il öncə İFSO və digər konqreslərdə də təqdim etmişik. İlk dəfə Vyanada bu kiçik modifikasiyanın əhəmiyyəti haqqında danışmışdıq. İndi isə artıq əldə etdiyimiz effektiv nəticələri paylaşırıq. Düşünürük ki, önünümüzdəki beynəlxalq tədbirlərdə də Bariatrik-Metabolik Cərrahiyyə sahəsində aparılan işlər barəsində geniş məlumatlar verib, təcrübə mübadiləsi apararaq bu sahənin ölkəmizdə daha da irəli getməsinə nail olacağıq".

Dərnək sədri eyni zamanda ölkəmizdə İFSO–nun (International Federation for the Surgery of Obesity and Metabolic Disorders) təmsilçisi kimi beynəlxalq tədbirin son günündə idarə heyətinin ümumi toplantısında iştirak edib, gələcək konqreslərin təşkili ilə bağlı məsələlərin müzakirəsinə qatılıb. Tədbirin sonunda Dərnəyin loqosunu özündə əks etdirən hədiyyə İFSO katibliyinə təqdim edilib.

Konfrans "ECME" tərəfindən akkreditasiya olunaraq 14 ECME balı ilə qiymətləndirilib. Dərnək sədri T.Ömərov gələcəkdə bu səviyyəli beynəlxalq tədbirlərin ölkəmizdə təşkil olunacağına əmindir.

# Mütəxəssisimiz Minskdə "Early Childhood İntervention" konfransında iştirak edib

**İyunun 4-6-da Belarusun Minsk şəhərində erkən yaşlarda müdaxilə sistemlərinin və ailələrin gücləndirilməsinə həsr edilmiş "Early Childhood İntervention" adlı konfrans keçirilib.**



Belarus və Rusiyanın, eləcə də "UNICEF Europe & Central Asia"nın dəstəyi ilə baş tutan tədbirdə inkişaf pediatriyası üzrə Avropa və Mərkəzi Asiyanın 15 ölkəsindən mütəxəssislər iştirak edib. Konfransda inkişaf çətinlikləri və əlilliyi olan uşaqların problemləri, onların həlli yolları müzakirə olunub.

Tədbirdə Azərbaycanı Tibb Universitetinin I uşaq xəstəlikləri kafedrasının assistenti Nigar Sədiyeva, Səhiyyə Nazirliyinin Tibbi Yardımın Təşkili Şöbəsinin məsləhətçisi Aynurə Zeynalova, Təhsil Nazirliyinin Deinstitutlaşma və Uşaqların Müdafiəsi İdarəsinin rəisi Məlahət Hacıyeva, UNİCEF-in Səhiyyə üzrə nümayəndəsi Töhfə Jamilova təmsil ediblər.

Nigar Sədiyeva konfransda "Strengthening Capacity of healthcare Providers In Add-Ecd (Addressing Developmental Difficulties And Early Childhood Development): The Azerbaijan Experience" mövzusu üzrə məruzə ilə çıxış edib. O, ölkəmizdə son illərdə inkişaf pediatriyası sahəsində görülən işlər barədə məlumat verib: "May ayında cənab prezident İlham Əliyev "Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018–2020-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Ölkəmizdə inkişaf çətinlikləri olan uşaqlara xidmət göstərilməsi üzrə UPSİM və Bakı Uşaq Bərpa Reabilitasiya Mərkəzindən başqa, 14 regional mərkəz açılıb. IDIR üzrə milli komanda yaradılıb, sinirpsixi inkişafın qiymətləndirilməsi üzrə 567 pediatriya treninqi keçirilib".

Konfransın sonunda iştirakçıların sualları cavablandırılıb, gələcək planlar müzakirə edilib.

# Nümayəndə heyətimiz Türkiyənin Hacettepe Universitetində ezamiyyətdə olub

**Azərbaycan Tibb Universitetinin nümayəndə heyəti mayın 21-26-da Türkiyənin Hacettepe Universitetində ezamiyyətdə olub. ATU-nun tədris şöbəsinin müdiri Samir Cavadov, rezidentura şöbəsinin müdir müavini Nigar Sadiyeva və İT şöbəsinin rəhbəri Rəmzi Əliyev bir sıra görüşlər keçiriblər. Nümayəndə heyəti Hacettepe Universitetinin rektoru, professor Dr.Haluk Özen, tibb fakültəsinin dekanı, professor Dr.Bülent Altın, İktisat ve İdari Bilimler fakültəsinin dekanı, professor Dr. Sunay İl, Halk Sağlığı İnstitutunun direktoru, professor Dr. Ş.Özvarış və digər rəsmilərlə görüşüblər.**

ATU-nun mütəxəssisləri anatomiya kafedrasında professor Dr. D.Demiryüreyin rəhbərliyi altında dərslərin əyaniliyini təmin etmək üçün yeni qurulan 4D görüntülü elektron avadanlıqlarla tanış olublar. Tədris proqramının beynəlxalq standartlara uyğunlaşdırılması məqsədilə Öğrenci İşleri Daire Başkanlığı, Bilgi İşlem Daire Başkanlığında və HU Kütüphane ve Dokumentasyon Daire Başkanlığında faydalı görüşlər təşkil edilib, eyni zamanda, nümayəndə heyətimizin çoxsaylı sualları cavablandırılıb.

ATU-nun təmsilçiləri Azərbaycanın Türkiyədəki səfirliyinin təhsil müşaviri Nəcibə



Tibb fakültəsinin dekan köməkçisi, professor Dr. P.Atilla universitetin idari işlərindən məzuniyyət öncəsi təhsil, dekan yardımçısı Derya Karakoç məzuniyyət sonrası (rezidentura) təhsilin strukturu barədə seminarlar keçirib. Professor Dr.M.Elçin nümayəndə heyətimizə tibb tədrisi kafedrasının təşkili, maketlərin və standart xəstə modellərinin istifadəsi barədə məlumat verib. Nümayəndə heyətimiz rezidentura təhsilinin akkreditasiyasına həsr edilmiş toplantıda iştirak edərək QBB bölməsinə dair hesabatı dinləyib.

Nəsibova ilə birlikdə Hacettepe Universitetində təhsil alan tələbə və assistentlərlə də görüşüblər. Onlara son illər tədris səviyyəsinin yüksəldilməsi üçün universitetdə həyata keçirilən islahatlar barədə məlumat verilib, tələbələrimizin təklifləri dinlənilib, sualları cavablandırılıb.

Səfər çərçivəsində nümayəndə heyətimiz və Azərbaycanlı Həkimlər Dərnəyinin üzvləri Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə M.Ə.Rəsulzadənin Ankaradakı məzarını ziyarət ediblər.

# Tələbəmiz Almaniyada beynəlxalq konqresə qatılıb

**Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasının allerqoloqu Tahirə Pənahovanın Almaniyanın Münix şəhərində bu yaxınlarda keçirilən Avropa Akademiyasının Allerqoloq və Klinik İmmunologiya konqresində posteri nümayiş olunub.**




Poster haqqında ATU-nun II müalicə-profilaktika fakültəsinin V kurs tələbəsi Kamilə Qaraisalı danışıb.

O, "Bronxial astmalı uşaqlarda piylənmənin kliniki xüsusiyyətləri" mövzusunda olan posteri məruzə şəklində təqdim edib.

Kamilə Qaraisalı eyni zamanda Avropa Akademiyasının Allerqoloq və Klinik İmmunoloqlar Cəmiyyətinin gənc üzvüdür.

Konqresdə müasir allerqologiya, iki



hissəli allergik immunoterapiyaya dair yeniliklər, qida allergiyası və anafilaktik şokdan bəhs edən qaydalar, yeni dərman vasitələri haqqında geniş məlumat verilib. Bildirilib ki, bu dərman preparatları artıq bir çox Avropa ölkələrində istifadə edilir və onun müsbət nəticələri var.

Qeyd edək ki, konqresdə dünyanın müxtəlif ölkələrindən 7 mindən çox həkim iştirak edib.

**ATU-nun mətbuat xidməti**

# ŞƏFALI ƏLLƏR SAHİBİ

**Hansı vəzifənin, hansı sənətin sahibi olursan ol, yüksək insani keyfiyyətlərə sahib olmalısan. İnsani dəyərlər itəndən sonra yaxşı alim, yaxşı müəllim, qabiliyyətli həkim, nəhayət yaxşı adam da olmaq mümkün deyil.**

Tarixən ünlü sənətkarlar yaxşı adamlar olublar. Sənətinin məsuliyyətini daşıya bilməyən adam heç vaxt müdrik, kamil bir şəxsiyyət kimi diqqəti çəkməmişdir. Çünki bütün gözəlliklər yaxşı adamlarla başlayıb, onlarla da bitir:

*Vicdanı, eşqiylə alovlu ürək,*
*O, xalqa gərəkdir, xalq ona gərək.*
*Ruhuyla, canıyla göylərdə mələk,*
*Yerdə həqiqətdir yaxşı adamlar.*

Hörmətli oxucular, mən bu yazımda sizə yaxşı bir insan, bacarıqlı, qabiliyyətli, təmənnasız bir həkim haqda söz açmaq istəyirəm. Bu həkim ATU-nun hərbi tibb fakültəsinin hərbi cərrahiyyə kafedrasının müəllimi, tədris hissəsinin rəisi İlqar Osman oğlu Ömərovdur.

Həmişə öz üzərində işləyən, dünya tibb elmində baş verən yeniliklərlə mütəmadi tanış olmağa çalışan İlqar həkim heç təsadüfi deyil ki, xalq tərəfindən bacarıqlı bir həkim, yaxşı bir insan kimi sevilir, seçilir... Peşəsinin vurğunu kimi tanınan İlqar həkim daim çalışır ki, üzünün təbəssümü və qəlbinin hərarəti ilə xəstələrdə bir ruh yüksəkliyi yaratsın, onların yaşamaq inamını gücləndirsin. Dədələr deyib ki, xoş xasiyyət insana verilmiş Tanrı payıdır... Məhz bu mənada İlqar həkimin gülər üzü, xoş xasiyyəti, açıq qəlbi bacarıqlı, savadlı həkim olması ilə vəhdət təşkil edir.



İlqar həkim eyni zamanda Qarabağ döyüşlərində iştirak edib. Hərbi-səhra cərrahiyyə hospitallarında cərrah kimi fəaliyyət göstərib. Dərin biliyi, bacarığı, vətənpərvərliyi və peşəsinə sevgisi sayəsində neçə-neçə yaralının sağalaraq yenidən döyüşə qayıtmasına kömək edibdir.

İ.Ömərov xəstələrə şəfa verməklə yanaşı, elmi fəaliyyətlə də məşğuldur. O, tibb üzrə fəlsəfə doktorudur. 2010-cu ildə "Peritonitin fazalarından asılı olaraq qaraciyərdə baş verən morfofunksional dəyişikliklər və onların tənzimlənməsi" mövzusunda dissertasiya işini müvəffəqiyyətlə müdafiə edib. Hazırda "Diabetik ayağın irinli-nekrotik ağırlaşmalarının müalicəsində cərrahi taktika" mövzusunda elmi-tədqiqat işi aparır.

İlqar həkim həmçinin respublikada və xarici ölkələrdə keçirilən bir çox elmi konfrans və simpoziumların iştirakçısı olub, elmi məqalələrlə çıxış edib. Bir dərsliyin, 2 metodik vəsaitin, 2 səmərələşdirici təklifin, 32 elmi məqalənin müəllifidir, müxtəlif mükafatlar və fəxri fərmanlarla təltif olunub.

O, hansı kollektivdə çalışır çalışsın, həmişə iş yoldaşlarının və xəstələrin sevimlisi olub. Şəfalı əllər sahibi olan İlqar həkimdən söhbət düşəndə daim razılıq hissi ilə danışılır.

Həmişə belə hörmət sahibi olasız, şəfalı əlləriniz var olsun, İlqar həkim!

**Eldar İSMAYIL**

## İDMANÇILARIMIZIN UĞURLARI

**Nəsimi rayon İcra Hakimiyyətinin nəzdində fəaliyyət göstərən İdman Gənclər İdarəsinin keçirdiyi Ulu Öndər Heydər Əliyevin 95-ci il dönümünə həsr olunmuş futbol turnirində Azərbaycan Tibb Universitetinin komandası I yeri tutaraq kuboka layiq görülmüşdür.**



Bundan əlavə, ATU-nun idmançıları ali məktəb tələbələri arasında keçirilən çempionatda da idmanın müxtəlif növlərində uğurla iştirak ediblər.

Komandalarımız çempionatda qadınlararası şahmat üzrə (məşqçi professor K.Kəbirlinski) I, stolüstü tennis üzrə (məşqçi Y.Ağamalıyeva) I, cüdo üzrə (məşqçi Ə.Aliavsaro) I, sərbəst güləş üzrə (məşqçi professor Z.Məmmədov) II, kişilərarası şahmat üzrə (məşqçi professor K.Kəbirlinski) III, badminton üzrə (məşqçi N.Mehdiyeva) III və yunan-roma güləşi üzrə (məşqçi professor Z.Məmmədov) IV yeri tutublar.

Bu möhtəşəm qələbə münasibətilə komandaların üzvlərini və məşqçiləri təbrik edirik!

Məlumat üçün onu da bildirək ki, basketbol, voleybol və atletika üzrə keçiriləcək idman növlərinə oktyabr-noyabr aylarında start veriləcək.

## Milli Səhiyyə Forumu tibb işçilərinin peşə bayramına həsr olunur

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən iyunun 17-si Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Həmin gün münasibətilə iyunun 16-da ölkəmizdə ilk dəfə olaraq Milli Səhiyyə Forumu təşkil olunacaq.**




Paytaxtda keçiriləcək tədbirin məqsədi tibb sahəsindəki ən son yenilikləri müzakirə etməklə yanaşı, dövlət və özəl sektorlarda çalışan tibb işçilərinin, tələbə və rezidentlərin peşə bayramını qeyd etməkdir.

Forum PROAKTİV şirkətinin təşkilatçılığı, Azərbaycan Tibb Universiteti və Milli Onkologiya Mərkəzinin dəstəyi ilə təşkil olunur.

## Portuqaliya mətbuatı Azərbaycanda bu ölkənin həkimləri üçün iş yerlərinin olmasından yazır

**Portuqaliyanın "Diario de Noticias" portalında "Portuqaliyalı həkimlər üçün yeni istiqamət - Azərbaycan" sərlövhəli məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Portuqaliyada həkimlərin məvacibinin az olmasına görə onların işləmək üçün xarici ölkələrə getmələri barədə danışılır. Bildirilir ki, portuqaliyalı həkimlər işləmək üçün əsasən Böyük Britaniya, Fransa, Belçika, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrə yollanırlar. Azərbaycan bu siyahıda növbəti istiqamət ola bilər.

Məqalənin müəllifi qeyd edir ki, bu yaxınlarda Bakıda Prezident İlham Əliyevin iştirakı ilə açılmış Bona Dea Beynəlxalq Hospitalı Portuqaliyadan olan və ona yaxın ixtisaslar üzrə həkimlər üçün iş elanı yerləşdirib. Hospitalın rəsmisi Portuqaliya mətbuatına bildirib ki, Azərbaycandakı hospital həkimlərə Səudiyyə Ərəbistanındakından daha artıq məvacib verəcək.




Diqqətə çatdırılır ki, Səudiyyə Ərəbistanında çalışan portuqaliyalı həkimlər ayda 12 min avroya yaxın maaş alırlar.

## Ölkəmizdə ilk dəfə uzunömürlülük xəritəsi hazırlanıb

**Hazırda ölkəmizdə 90 yaşından yuxarı 10 min uzunömürlü var. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun direktoru, biologiya elmləri doktoru Ulduz Həşimova AZƏRTAC-a məlumat verib.**



Aparılan tədqiqatlar nəticəsində ölkəmizdə ilk dəfə olaraq uzunömürlülük xəritəsi hazırlanıb. Xəritə artıq tam hazırdır və yaxın günlərdə çap olunacaq.

Direktorun dediyinə görə, uzunömürlülük xəritəsi rəsmi statistik məlumatlar əsasında tərtib olunub. Bu, beynəlxalq təcrübədə qazanılmış metodikadır. Qəbul olunmuş qaydaya görə, uzunömürlülük indeksi yaşı 90-ı keçənlə 60 və daha yuxarı yaşda olanların sayına nisbətidir.

Tədqiqatlar ölkəmizin uzunömürlülük indeksinin yüksək olduğu bəzi bölgələri üzə çıxarıb. Uzunömürlülük tədqiqolunarkən ilkin mərhələdə onların yaş verifikasiyası aparılır. Həmçinin uzunömürlülər, onların ailə üzvləri, eləcə də uzunömürlülük qeydə alınmayan ailələr tədqiqat qrupuna daxil edilir və onların üzərində eyni tibbi-bioloji müayinələr aparılır. Aparılan müayinələrdə həkimlər, bioloqlar və başqa mütəxəssislər iştirak edirlər.

Hesablamalar göstərir ki, ölkəmizdə uzunömürlülərin sayı artıb.

Hazırda tədqiqatlar cənub rayonlarında aparılır.

## Etibarsız sayılır

Stomatologiya fakültəsinin V kurs, $740^{b}$ qrup tələbəsi Qasımov Nicat Vahid oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin III kurs, $700^{b}$ qrup tələbəsi Seyhan Senar Hızır oğlunun adına verilmiş müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $241^{a}$ qrup tələbəsi Məmmədova Səbinə Şaxəddin qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Stomatologiya fakültəsinin II kurs, $782^{a}$ qrup tələbəsi Bayramov Avaz Şahin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin III kurs, $4^{b}$ qrup tələbəsi Mürşüdlü Əlisahib Nadir oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $317^{a-7}$ qrup tələbəsi Dəmirova Nübar Arif qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin I kurs, $317^{a-7}$ qrup tələbəsi İsmayılova Aysel İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

İnsan anatomiyası və farmakologiya kafedralarının əməkdaşları insan anatomiyası kafedrasının professoru Elçin Xıdırova qayınatası

**Fərəmaz İmanovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İ uşaq xəstəlikləri kafedrasının əməkdaşları assistent Gültəkin Novruzovaya həyat yoldaşı

**Müşfiq Novruzovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın professoru Nərgiz Hüseynovaya qardaşı

**Məmməd Hüseynovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tibbqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800